AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2024, № 1 (279), 83 – 90
10.48445/k7688-1264-9614-p

AZƏRBAYCAN ƏDƏBİYYATI

# Seyran Səxavətin nəsrində bədii təcəssümün yeni üsulları (*"Hamı elə bilirdi" və "Yüz ilin kişisi" hekayələri əsasında*)

***Günel Hümmətova (Pəniyeva)***
Filologiya üzrə fəlsəfə doktoru, baş müəllim, Ədəbiyyatın tədrisi texnologiyası kafedrası, Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan.
E-mail: gunelpeniyeva@mail.ru
https://orcid.org/0000-0002-8916-3484

**XÜLASƏ**
Təqdim edilmiş məqalə giriş, iki yarımbaşlıq, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Məqalənin girişi mövzunun aktuallığını, qarşıya qoyulan vəzifələri və elmi yeniliyi əhatə edir. Birinci yarımbaşlıqda müasir Azərbaycan nəsrinin inkişafının yeni mərhələsi kimi 70-ci illər nəsrinin problematikası, novatorluq və ənənəçilik xüsusiyyətləri araşdırılır. İkinci yarımbaşlıqda isə Seyran Səxavətin 70-ci illər nəsrinin üslubi təmayülləri və mənəvi əxlaqi problemlər "Yüz ilin kişisi", "Hamı elə bilirdi" və s. bu kimi nəsr nümunələri əsasında tədqiq edilir.

**AÇAR SÖZLƏR**
nəsr, novator, inkişaf, 70-ci illər nəsri, Seyran Səxavət

**MƏQALƏ TARİXÇƏSİ**
Göndərilib: 11.01.2024
Qəbul edilib: 18.02.2024

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2024, NO. 1, VOL. 279, 83 – 90
10.48445/k7688-1264-9614-p

AZERBAIJANI LITERATURE

# New methods of artistic embodiment in the prose of Seyran Sakhavat *(Based on the stories "Everybody Thought" and "The Man of a Hundred Years")*

***Gunel Hummatova (Paniyeva)***
Doctor of Philosophy in Philology, Head teacher, Department of Literature Teaching Technology, Azerbaijan State Pedagogical University. Azerbaijan.
E-mail: gunelpeniyeva@mail.ru
https://orcid.org/0000-0002-8916-3484

**ABSTRACT**
The submitted article consists of an introduction, two chapters, a conclusion and a list of references. The introduction covers the relevance of the topic, the challenges and scientific innovation. In the first chapter, the problematic, innovation and traditionalism features of the prose of the 70s, which is taken as a new stage of the development of modern Azerbaijani prose, are examined. In the second chapter, the stylistic tendencies of Seyran Sakhavat's prose of the 70s and the spiritual and moral problems in the prose of the writer's novel "Man of a hundred years", "Everybody thought so" and so on. researched on the basis of such prose examples.

**KEYWORDS**
prose, innovator,
development,
70s prose,
Seyran Sakhavat

**ARTICLE HISTORY**
Received: 11.01.2024
Accepted: 18.02.2024

## Giriş

Mövzunun aktuallığı istər 70-ci illər, istərsə də cəmiyyətimizin inkişafının əvvəlki mərhələlərinin həyat tərzinə münasibəti, hadisələrə yeni baxışı ilə fərqlənən orijinal mənzərələri təcəssüm etdirir. Məqalədə təsvir edilən hadisələrin dolğunluğuna, məkan və inkişaf formasına, ideyanın təqdimedilmə metodunun uyğunluğuna tam şəkildə riayət edilməyə çalışılıb. Eyni zamanda bu dövrün ədəbiyyatı yalnız zaman əlamətinin uyğunlaşması ilə deyil, həm də onun məzmununda, ideyasında, insan anlayışında və bütün bunların təsiri ilə obrazlı strukturunda, poetikasında əmələ gələn keyfiyyət dəyişiklikləri əlamətinin mövcudluğu ilə də seçilirdi. Bu keyfiyyət dəyişikliklərini, qısaca olaraq, nəsrdə reallığın artması, şəxsiyyətə, onun psixologiyasının mürəkkəbliyinə daha həssas münasibət bəslənilməsi, humanist idealın güclənməsi, münaqişələrin, problemlərin bədii təsvirdə daha çox mənəvi-əxlaqi aləmə keçməsi və insanla cəmiyyət, mühit arasındakı qarşılıqlı əlaqələrin müxtəlifliyinin nəzərə alınması kimi ümumiləşdirmək mümkündür. Məqalədə məhz 70-ci illər Azərbaycan nəsrinin ümumi mənzərəsi, inkişafı, mövzu və problematika dairəsi, nəsrdəki novatorluq və ənənəvilik prinsipləri, eyni zamanda nasir Seyran Səxavətin bu illərdə yazdığı əsərlərin mövzu dairəsi, ideyalar aləmi, onların bədii-estetik xüsusiyyətlərinin araşdırılması mövzunun aktuallığını təşkil edir.

1960 – 1970-ci illərin ortalarına qədərki dövrün nəsri kifayət qədər öyrənilərək elmi-nəzəri təhlilə cəlb edilsə də, Seyran Səxavət yaradıcılığının təhlil obyektinə çevrilməsi barədə fikir yürüdə bilmərik. Çünki ədibin yaradıcılığına dair bir sıra məqalələr çap olunsa da, elmi şuralarda ədəbi tənqid, ədəbi ictimaiyyət nümayəndələrinin çıxışlarından, bəzi ədəbiyyatşünasların onun roman və povestlərinə yazdıqları rəylərdən başqa bir məlumata rast gəlinmir. Son dövr ədəbi mühitin Seyran Səxavət yaradıcılığına verdiyi dəyər sayəsində bir neçə monoqrafiya yazılmış, tədqiqat işləri aparılmışdır. Məhz həmin materialların bir qismindən çıxış edərək Seyran Səxavət nəsrinin ümumi mənzərəsini yaratmaq məqalənin aktuallığını şərtləndirir.

Məqalədə yazıçının nəsr əsərlərinin mövzu dairəsini müəyyənləşdirmək və onun üslubi təmayüllərini araşdırmaq üçün aşağıda qeyd edilən vəzifələri yerinə yetirməyə çalışılmışdır:

- 70-ci illər nəsrinin əsas inkişaf meyillərini müəyyən etmək;
- Həmin illərdə yaranan nəsrin ümumi mənzərəsini xarakterizə etmək və onun ideya-məzmun aktuallığını təyin etmək;
- Seyran Səxavətin nəsrində bədii təcəssümün yeni üsullarını, həmçinin irəli sürülən mənəvi-əxlaqi problemlərin modelini araşdırmaq;

Ədibin bədii əsərlərinin ideya-məzmun istiqamətlərini təyin edib, təhlil üsulunu müəyyənləşdirmək.

**Əsas hissə**

**70-ci illər Azərbaycan nəsrinin mövzu dairəsi**

70-ci illər müasir Azərbaycan nəsrinin əsas vəzifəsi insanın daxili aləmi və duyğularını qabarıq formada canlandırmaqdan ibarət idi. Bu funksiyanı yerinə yetirmək üçün lirik janrdan geniş şəkildə istifadə olunurdu ki, bu da həmin dövr nəsrinin problematikasının, irəli sürülən ideya-mövzusunun, janra yanaşma fərqliliyinin, lirik-psixoloji üslubdan istifadə metodunun 30 – 50-ci illərdən tam şəkildə fərqlənməsinə, öz yeniləşmə meyillərini büruzə verməsinə gətirib çıxardı. Bu yeniləşmə meyillərini ənənəvi sovet nəsrinin görkəmli nümayəndələri də hiss edir və bu barədə çoxsaylı məqalələr dərc edirdilər. Tanınmış tənqidçi və yazıçı M. Hüseyn ümumən ədəbi prosesin inkişaf meylinə dair sərrast müşahidələrini ümumiləşdirərək yazır: *"Mən cəsarətlə deyə bilərəm ki, bədii nəsrimizdə də, şeirimizdə də biz yeni bir mərhələyə qədəm qoymuşuq. Bu mərhələnin artıq qəti bir mövqe tutduğunu iddia etmək üçün tələsməyə ehtiyac yoxdur. Ən mühüm cəhət budur ki, həmin mərhələyə keçməyin tarixi labüdlüyünü bütün ədəbi ictimaiyyətimiz aydın hiss etməkdədir. Həyat hadisələrinin və insan surətlərinin təsvirində və mənalandırılmasında nə isə daha lirik, psixoloji təhlildə daha təmkinli və kamil bir üsul axtarmağın, daha təravətli və təzə ifadə vasitələrinə meyil göstərməyin özü heç də az əhəmiyyətli deyildir"* [2, s. 11].

Bu fərqliliyi müasir nəsrin məzmun-mündəricə və mövzu-problematika yenilikləri də isbat edir. Nəsr əsərlərində qarşıya qoyulan problemlərin təxmini məzmunu bu cür müəyyənləşir:

*"İnsanın mənəvi hiss və həyacanlarını nəzərə almaqla onun ön plana keçməsi, mənəvi-əxlaqi məsələlərə diqqətin artırılması, "kiçik" adamların təsvir obyekti seçilməsi, ictimai həyatın mənfiliklərinə cəsarətli müdaxilə, müasir kənd problemi və bununla yanaşı əsərlərə gətirilən obrazların yeniliyi – düşünən qəhrəman obrazları, kommunist obrazlarının açılması məsələləri, insanın, fərdin yetkinləşməsi, cəmiyyət həyatı ilə uyğunlaşması, sovet ideologiyasından imtina, sərt həyat həqiqətlərinin təhlil obyektinə çevrilməsi, insanın daxili düşüncələrinin açıq şəkildə təsviri"* və s. bu kimi yeniliyin aktuallığı 30 – 60-cı illər nəsrindən tam seçilirdi [1, s. 32]. Əgər bu problemlər əvvəlki illərdə daha çox örtülü, qismən hiss olunmayacaq dərəcədə idisə, bu dövrdə artıq ədəbiyyatın inkişafının əsas meyillərinə çevrilmişdir. Bununla yanaşı nəsrdə sosial problematika ön plana keçir və mənəvi-psixoloji axtarışlar da məhz bu problemlərin

qovşağında təqdim edilir. Yazıçıların qələmə aldıqları müasir həyat mövzularında sosial təhlil gücləndikcə onlar yaşadıqları cəmiyyətin ictimai təbiətinə dair daha dərin qənaətlərə gəlirdilər. Belə ki, 70-ci illərdə yaşayıb yaradan nasirlərin, həmçinin C.Hüseynov, Anar, Elçin, S. Əhmədov, S. Məlikzadə və digər yazıçıların yeni povest və romanları insanın kəskin mürəkkəb ictimai-mənəvi kolliziyalar mühitində təsvirini, onun daxili aləmini dərindən, analitik inikas vasitələri ilə göstərmək nöqteyi-nəzərindən diqqəti cəlb edir. *"Bu yazıçılar (70-ci illər nəzərdə tutulur. P. G) insanı qabaqcadan müəyyən edilən, düşünülmüş sxemlər əsasında yox, həyatın axınında, bəzən hətta təzadlı, ziddiyyətli özünüaxtarış prosesində tədqiq etmək təşəbbüsləri səmərəli və təqdirəlayiqdir. Onlar oxucunun fikrini qəhrəmanın vəziyyəti, mövqe seçməsi üzərində mərkəzləşdirirlər. Müasir nəsrin spesifik xüsusiyyətləri odur ki, həyat problemlərin təsvirində, hər şeydən əvvəl, qəhrəmanın fəal həyat mövqeyinə, öz bəşəri vəzifəsini şəxsən necə başa düşməsinə arxalanır"* [6, s. 10 – 11].

Doğrudan da, bu dövr nəsrinin yeniliyi və ədəbiyyatımızın inkişafında yeni meylin yaradılması üçün nasirlərimiz sadə insanların içində olub onların yaşayış tərzi ilə maraqlanmalı, onların arzu, istəklərini anlayıb bu amal uğrunda nə etdiklərini və etmək istədiklərini müşahidə etməli idi. 70-ci illər nəsri ümumən seçilmiş insanların həyatını və onların azadlıq uğrunda çarpışmalarını reallıqla əks etdirməsi ilə də yadda qalmışdır.

**"Hamı elə bilirdi" və "Yüz ilin kişisi" hekayələri**

Seyran Səxavətin "Hamı elə bilirdi" hekayəsinin əsas mövzusu müharibə illərinin törətdiyi maddi fəsadların bədii təcəssümüdür. Hekayənin baş qəhrəmanı olan el ağsaqqalı Bəylər kişinin mənəvi portreti evindən kolxoz həyətinə qədər olan məsafə boyu təsvir edilir. Onun insanı tərbiyələndirmə yolu və insan xarakterinin onun psixologiyasında sərt dönüşün yaratması bacısı oğlu Bəhramın kolxozun dərz tayasını yandırması istəyində aşkarlanır. Belə ki, Bəylər kişini çağırırlar ki, bacın oğlu Bəhram kolxozun tayasını yandırır, gəl, onu bu işdən çəkindir. Bəylər kişi bu çağırışa ilk baxışda laqeyd qalır, onu aparmağa gələn maşına minmir, yol boyu kolxozçu Şirinlə keçmiş və gələcək haqqında mübahisə edirlər. Xeyli getdikdən sonra Bəylər kişi soruşur:

– *"Nə deyir? Deyir niyə yandırram tayanı?*

– *Əşi, nə bilim, ay dədəm-nənəm sənə qurban olsun! Kəfşəndən gəlirmiş, görüb ki, Sarıyoxuşda beş-altı sünbül düşüb yerə. Atdan düşüb onları bir-bir yığıb ki, gətirib tayanın üstə atsın. Görüb ki, burda da tayadan bir bafa düşüb yerə. Başlayıb haray-həşir salmağa ki, tayanı yandıracam, sünbüllər niyə yerə düşüb?"* [5, s. 5].

Bu epizodda hekayənin digər bir qəhrəmanı, müharibənin törətdiyi aclıq və qıtlıq illərində xalq malını göz bəbəyi kimi qoruyan, camaatın xeyrinə görə heç kəsə, heç

nəyə güzəştə getməyən əzazil bir obraz kimi yadda qalan Bəhramın xarakteri ilə tanış oluruq. Yazıçının zahirən cod, davakar bir insan kimi qələmə aldığı bu qəhrəmanının əsərdə, əslində, həddindən artıq ürəyiyumşaq, həlimxasiyyət biri olduğu anlaşılır. Belə ki, bu kiçik parçada el malına yanan, bunu başqalarından da tələb edən tipik insan xarakteri verilmişdir. Elə onun tayanı yandırması da insanları bir növ tərbiyələndirmək və kolxoz malını, el malını göz bəbəyi kimi qorumağa çağırış sədasıdır. Bunu Bəylər kişi çox yaxşı bilir. Çünki Bəhram keçən il də kolxozun bir danasının zəmiyə girməsinə görə iki yüz əlli baş qaramalı yandırmaq fikrinə düşmüşdü.

Bəylər kişi adamların güclə tutub saxladıqları Bəhrama yaxınlaşır, qəribə bir soyuqqanlılıqla kibriti çıxarıb ona verir və tayanı yandırmasını təkid edir. Kibritin uzadılması ağsaqqalın cahil bir adama qarşı olan hirsinin son nöqtəsidir və Bəhram bunu dərhal hiss edib tutduğu işə peşman olur. Bayaqdan tayanı yandırmağa məqam axtaran Bəhram, Bəylər kişini qucaqlayıb əzizi ölmüş adam kimi ağlayır, atına minib kövşənə tərəf uzaqlaşır. *"Bu, insan psixologiyasının sərt dönüş nöqtəsinin təbii, səmimi təsviridir"* [3, s. 3].

S. Səxavətin bu illərdə yazmış olduğu əsərlərdən biri də "Alça çiçəyi" hekayəsidir. Bu hekayənin süjetində belə bir hadisə dayanır. Hamının əzazil, zalım bir adam kimi tanıdığı Abış kişi ağacdan alça yığmaq üstündə balaca Dadaşı dəli olmaq dərəcəsinə qədər döyür. Dadaş on ildir ki, bu səbəbdən dəlidir, bu hadisəni isə Abış kişidən başqa heç kim bilmir. Müəllif Abışın zalımlığı ilə bərabər, qəlbində ara-sıra yaranan peşmançılıq hissini də təbii verə bilmişdir. Bu peşmançılıq onu qızını Dadaşa verməyə məcbur edir. Toy gecəsindən sonra Abışın lal, ancaq çox gözəl olan qızı Solmazın dili açılır. Bu işıqlı sonluq Dadaşın da dəliliyinin sağalacağına inam yaradır.

Hekayənin qəhrəmanı olan kolxozun qarovulu Abış kişi də Bəhram kimi öz işinə can yandırır, heç kəsə güzəştə getmir və əzazilliyi ilə kənddə məşhurdur. Lakin bu əzazillik onun əxlaqi keyfiyyətidir. Əslində isə bütün kənd camaatı da, Abış kişinin özü də bilir ki, o, kolxoz idarəsini yox, idarənin həyətində bitən cır alça ağacını qoruyur, hamı bilir ki, ağacdan bircə turş alça da dərmək mümkün deyil. Çünki bu alçadan kolxoz sədrinin arvadı lavaş bişirəcək.

Hekayədə hadisələrin əsas inkişaf obyektinə çevrilmiş və onun sərlövhəsinə çıxarılmış "alça ağacı" rəmzi məna kəsb edir. Məhz bu ağacın özü və meyvəsinin turşluğu "Abışların turşluğu", "cırlığı" kimi rəmzi məna kəsb edir. Belə ki, Abışın əzazilliyinin, turşluğunun və cırlığının nəticəsidir ki, atası müharibədən qayıtmayan balaca Dadaş ruhi xəstəliyə tutulmuş, öz doğma qızı Solmaz isə qorxudan lal olmuşdu.

Bütün mətbuatın diqqətini cəlb edən, öz məzmun və ideyası baxımından orijinal olan "Yüz ilin kişisi" hekayəsi müəllifin 70-ci illərdə yazdığı kitablardan birinin adını

daşıyır. Hekayə fikirlər düzümündən ibarətdir. Yazıçı insanın taleyi, həyatın mənası, ölümün labüdlüyü haqqında düşüncələr fonunda Bəylər kişinin həyatının ayrı-ayrı epizodları ilə bizi tanış edir və oxucunun gözləri önündə 100 yaşlı müdrik, mərd, cəfakeş, eyni zamanda güclü, əzəmətli, mətin bir insan obrazını canlandırır.

Əsərin baş qəhrəmanı olan Bəylər kişi düz 99 il ömür sürmüş, bu ömür yolunda çox əziyyətlər çəkmiş, övladları, qardaşı uşaqları, nəvələri ilə birgə böyük bir ailəni idarə etmişdir. Bəylər kişi artıq qocalmışdı. O, indi öz arzuları və etdikləri ilə deyil, boya-başa çatdırdığı övladları, nəvələri, nəticələri ilə qürrələnir, fəxr edirdi. Bütün qohum-əqrəbası, nəvə-nəticəsi, ümumiyyətlə bütün kənd ona "baba" deyə müraciət edirdi. O, böyük bir kəndin, nəslin "baba"sı idi. Kənddə hamı ondan məsləhət alır, dediyini yerinə yetirirdi. İllərlə əziyyət çəkdiyi, düzgün tərbiyə verməyə çalışdığı, yaxşı təhsil verməyi özünə borc bildiyi nəvələrindən biri artıq onun arzularını yerinə yetirmiş, çəkdiyi əziyyəti yerə vurmamış, babasına layiq bir övlad olmuşdu. Bəylər kişi onunla fəxr edirdi, çünki nəvəsi yazıçı olmuş və babasına bir hekayə həsr etmiş, özü də kitabın sərlövhəsinə həmin hekayənin adını çıxarmışdı. Bu kitab Bəylər kişiyə hər şeydən əziz idi. Birinci, ona görə ki bu onun nəvəsinin yazdığı kitab idi, ikincisi də bu kitabda onun həyatının qısa xronikası verilmişdi. Kitabın ona aid hissəsi qatlanmış və digər nəticəsi tərəfindən hər gün bir neçə dəfə oxunurdu. Burada yazılan sözlər onun üçün çox əziz və doğma idi, çünki hekayədə Bəylər kişinin tale yolunun bəzi səhifələri əks edilmişdi. O, ömür yolunda yaxşı və pis adamlarla üzləşmiş, keşməkeşli həyat hadisələri ilə rastlaşmasına baxmayaraq büdrəməmiş, daim dimdik qalmağa çalışmış və buna da nail olmuşdu. İstər qardaşının başına gələn faciəli hadisə, istərsə də onun üzərində qalan böyük ailənin maddi çətinlikləri, əxlaq və təhsili onu öz doğrularından əl çəkməsinə, halal zəhmətdən imtina etməsinə, əyri yolun izinə düşməsinə vadar edə bilməmişdir. Əksinə, bu həyat yolunda kimsə yanlış yoldadırsa, ona kömək etməyə çalışmış və qismən buna nail olmuşdu. Öz tale yolunda düzlüklə, ədalətlə irəliləyənlərə isə çətin vəziyyətə düşəndə əlindən gələn köməkliyi göstərməyə çalışmışdı. İsmayıl oğlu Bəylər nəinki bu kənddəki, bəlkə də dünyadakı yaşıdlarını "yola salmış"dı. *"...Amma özünün ağlını, düşüncəsini, oturuşunu, duruşunu heç hara yola salmamışdı. Bu kəndin dağı kimi, çayı kimi, Əsgərxan bulağı kimi ömrü uzundur, hamıya görk ediləsidir. Bu görk yazıçının içindən süzülərək, qələm süzgəcindən keçərək daha da bütövləşir, tamlaşır. Oxucu elimizdə, obamızda hələ də belə kişilərin yaşamasına sevinir və o kişilərin həyatda itməyən adlarını, əməllərini özlərində yaşatmağa çalışırlar"* – deyən Sabir Rüstəmovun bu fikirləri ilə razılaşırıq. Yazıçı bir növ yaratdığı bu obraz ilə oxucu düşüncəsində milli əxlaqi dəyərlərə malik olan xarakter yoxdursa, onu bərpa etməyə, varsa da, onu daha möhkəmləndirməyə çalışmışdı [4, s. 10].

Əlbəttə, hekayənin nisbətən gizli qalan mənası daha dərin və genişdir. Belə ki, hekayəni oxuyub belə bir qənaətə gələ bilərik ki, yazıçı keçmişlə bu gün arasındakı əxlaqi-mənəvi varisliyin, babaların mərdliyini, qeyrətini yaşadan gənclərin hələ də ənənələrə sədaqətini xarakterizə etməyə çalışmışdır.

**Nəticə**

Tədqiq etdiyimiz məqalədən belə nəticəyə gəlirik ki, bu illər müasir Azərbaycan nəsrində ən çox diqqəti cəlb edən və geniş yayılan problem – şəxsiyyət və mühit məsələsidir. Eyni zamanda bu, şəxsiyyətin əhatə olunduğu mühitdən və öz daxili aləmindən irəli gələn mənəvi-əxlaqi dəyərləri, bunların başvermə səbəbini aşkara çıxarırdı. Eyni problemlər bu illərdə yazılmış ayrı-ayrı müəlliflərin əsərlərində də bədii təhlil obyektinə çevrilmişdir.

II yarımbaşlıqda yazıçının bu illərdə qələmə aldığı "Yüz ilin kişisi", "Hamı elə bilirdi" hekayələri təhlil obyekti kimi götürülmüş, onun irəli sürdüyü mənəvi-əxlaqi dəyərlər aşkarlanmışdır. Povest və hekayələrdəki mənəvi-əxlaqi dəyərlərin iki qismə bölündüyü, sonda isə tarixi-milli dəyərlərin cəmiyyət dəyərləri üzərində qələbəsinin şahidi oluruq ki, bu, hələ də tariximizə bağlılığın, keçmişimizdən ayrıla bilməməyimizin əsas sübutudur.

Tədqiqatın elmi yeniliyinə gəldikdə isə qeyd edə bilərik ki, məqalədə S. Səxavətin yaradıcılığının bu illərə aid olan nəsr nümunələrinin məzmun dairəsi və bədii xüsusiyyətləri ilk dəfə kompleks halda tədqiqata cəlb olunmuş və nasirin nəsr nümunələri haqqında mülahizələri ümumiləşdirilmişdir.

**İstifadə edilmiş ədəbiyyat**


1. Əliyev N. (2003). 60 – 80-ci illər Azərbaycan nəsrinin qəhrəman və üslub axtarışları. Dissertasiya işi.
2. Hüseyn M. (1962). Yeni mərhələ, yeni vəzifə. "Azərbaycan" jurnalı, № 7, s. 11.
3. Məmmədov C. (1980). Hamı elə bilirdi. "Bakı" qəzeti, 8 sentyabr, s. 3.
4. Rüstəmov S. (1982). Yüz ilin kişisi. "Araz" qəzeti, 4 sentyabr. S. Mümtaz ad. ARDƏİƏ. Fond 735, siy. 1, iş № 78, vər. 10.
5. Səxavət S. (1982). Hamı elə bilirdi. Bakı, Gənclik. 204 s.
6. Salmanov Ş. (1982). Müasirlik mövqeyindən. Bakı, Yazıçı. 121 s.